*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 2 avqust 2014-cü il | № 58 (1875) | Qiyməti 25 qəpik


## Torpaqlarımızın işğaldan azad edilməsi hər birimizin amalı olmalıdır

*Azərbaycan Ordusu günü-gündən güclənir. Azərbaycanda ordu quruculuğu çox uğurla gedir. Biz uzun illərdir ki, işğaldan əziyyət çəkirik, torpaqlarımız işğal altındadır. Hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğaldan azad edək. Bunu etmək üçün siyasi və diplomatik səylərlə bərabər, biz güclü orduya malik olmalıyıq və bu proses uğurla gedir. Bu gün Azərbaycan Ordusunun səviyyəsi çox yüksək zirvədədir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı**

***Bu gün ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmlənməsi və torpaqlarımızın işğaldan azad edilməsi üçün ordumuzun qarşısında bir sıra həlli vacib məsələlər dayanır. Bunlardan biri də şəxsi heyətin mənəvi-psixoloji hazırlığını və vətənpərvərlik tərbiyəsini gücləndirməkdir. Adətən belə deyirlər ki, ordu nə qədər müasir silahlanmaya malik olsa belə, ordunun əsas gücü onun şəxsi heyətinin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasındadır.***

Yəni, silahları da, ən müasir texnikanı da idarə edən insandır, onun zəkası və təfəkkürüdür. Orduda xidmət edən hər kəs düşməni məğlub etmək üçün yüksək vətənpərvərlik hisslərinə malik olmalıdır. Yalnız Vətəninə, xalqına və dövlətinə ürəkdən sevgisi və inamı olan hərbi qulluqçu dövlətçiliyimizin keşiyində möhkəm dayanmağa qadirdir. Buna görə də orduda şəxsi heyətin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi hazırkı mərhələdə əsas vəzifə kimi qarşıda dayanır.

Müasir dövrdə torpaqlarımızın erməni silahlı birləşmələrinin işğalından azad edilməsi vəzifəsi hər birimizin məsuliyyət hissini daha da artırmalıdır. Orduda mənəvi-psixoloji hazırlıq işinin, eləcə də əsgəri heyətin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün mümkün olan bütün üsul və vasitələrdən yaradıcılıqla istifadə edilməlidir.

Bu gün ordu rəhbərliyinin tələbi ondan ibarətdir ki, ordu sıralarında xidmət edən gənclərimiz həm müharibədə qalib gəlmək üçün yüksək hərbi vərdişlərə yiyələnərək hazırlıqlı döyüşçüləri kimi yetişsinlər, həm də sabahkı cəmiyyətimizin layiqli vətəndaşları kimi formalaşa bilsinlər. Göründüyü kimi, çox ciddi və məsuliyyətli vəzifələrdir. Sirr deyil ki, bu vəzifələrin əsas yükü ordunun komandirlərinin və onların şəxsi heyətlə iş üzrə müavinlərinin üzərinə düşür.

Biz vətənpərvərlikdən çox danışırıq, çox yazırıq, ancaq gəlin görək vətənpərvərlik geniş mənada nə deməkdir, onun prinsipləri nədən ibarətdir?

Ulu öndərimiz Heydər Əliyev gənclərin qarşısında dayanan vəzifələrdən danışarkən vurğulamışdı ki, "vətənpərvərlik dedikdə təkcə əldə silah Vətənin keşiyində dayanmağı düşünməməliyik, vətənpərvərlik hər kəsin canında, qanında olmalıdır". Əslində heç kim anadan vətənpərvər doğulmur, sadəcə ailə və cəmiyyətdə, həmçinin ordu həyatındakı layiqli təlim-tərbiyə insanı vətənpərvər olmağa sövq edir. Vətənpərvərlik işinin əsas xüsusiyyətləri ondadır ki, hər kəs doğulduğu yurdu və milləti qarşısında məsuliyyət daşımalıdır. İstər zabit, əsgər, ümumiyyətlə, hər kəs özü-özlüyündə düşünməlidir ki, mən Vətənim üçün nə etmişəm? Bu sual əslində cəmiyyətin hər bir üzvünü narahat etməlidir. Yəni, alim yaxşı ixtirası, elmi əsərləri, həkim düzgün müalicə üsulları, hakim ədalətli hökmü ilə cəmiyyət qarşısında cavabdehlik daşıyırsa, zabit və əsgərlər də hərbin sirlərinə dərindən yiyələnməklə və bacarıqlı döyüşçü kimi formalaşmaqla məsuliyyət daşıyırlar.

Azərbaycan xalqının milli-mənəvi dəyərləri, əxlaqi keyfiyyətləri orduda tərbiyə işinin əsas predmeti olmalıdır. Unutmaq lazım deyil ki, ordu cəmiyyətin ayrılmaz bir hissəsidir və böyük əksəriyyəti gənclərdən ibarətdir. Gənclərlə iş aparmaq üçün yüksək bacarıq və xüsusiyyətlər mənəvi-psixoloji hazırlıq işinə cavabdeh olan zabitlərin əsas vərdişlərinə çevrilməlidir. Yəni, bu gün sırada dayanan əsgər bir Azərbaycan gəncidir və söz yox ki, müasir gəncliyə xas olan xüsusiyyətlər onda da cəmləşib. O, dünənə kimi ailə və cəmiyyətlə təmasda olubsa, deməli, bugünkü gəncliyə xas olan mənfi, yaxud müsbət xüsusiyyətləri özü ilə ordu mühitinə gətirir. Ona görə də orduya qəbul edilən gənc əsgərlərin təlim-tərbiyəsi prosesinə ciddi fikir verilməlidir. Yalnız yüksək sağlamlığa və mənəvi keyfiyyətlərə malik olan əsgərlər ön xəttə göndərilməli və onlarda Vətənə məhəbbət, xalqa və dövlətə bağlılıq tərbiyə olunmalıdır. Biz çalışmalıyıq ki, müdafiənin ön xəttində - yəni Vətənimizin, torpaqlarımızın qorunduğu bir yerdə ən nümunəvi, ən bacarıqlı və öz şüurunda vətənpərvərlik keyfiyyətlərini daşıyan əsgərlər xidmət etsinlər.

Bütün zamanlarda dünyanın bütün ordularında hərbi xidmətin və qələbənin bütün ağırlığını əsgərlər çiyinlərində daşıyıblar. Göründüyü kimi, əsgər böyük qüvvədir və o, ordunun əsas özəyini təşkil edir. Bu məqsədlə ordu rəhbərliyi tərəfindən şəxsi heyətin mənəvi-psixoloji hazırlığına və vətənpərvərlik tərbiyəsinə ciddi əhəmiyyət verilir. Ötən dövrlərlə müqayisədə bu gün təlim-tərbiyə işinə cavabdehlik daşıyan qurumların və bu strukturlarda xidmət edən zabitlərin səlahiyyəti əhəmiyyətli dərəcədə artırılıb. Bu, həm yüksək etimad, həm də məsuliyyətdir.

Yuxarıdakı fikirlərimin birində qeyd etdim ki, ordu cəmiyyətin bir hissəsidir. Məhz bu mənada ictimaiyyətlə səmərəli iş birliyi orduda vətənpərvərlik tərbiyəsinin təşkilində əsas rol oynayır. Təkcə bayramlarda deyil, vaxtaşırı orduda ictimaiyyət nümayəndələri - ziyalılarla, sənət adamları və müharibə veteranları ilə keçirilən görüşlər həm də əsgərlərə xoş əhval-ruhiyyə, cəmiyyətə və dövlətə inam hissləri aşılayır.

Cəmiyyətlə ordu arasında səmərəli əməkdaşlıq nümunələrini qeyd etdiyim məqamda valideynlərlə görüşlərin keçirilməsini də vurğulamaq istərdim. Bu gün hərbi hissələrimizdə xüsusi guşələr yaradılıb ki, burada valideynlərin əsgəri xidmətdə olan övladları ilə görüşləri təşkil edilir. Həmçinin valideynlər əsgər kazarmasına dəvət edilir və burada yaradılmış şəraitlə bilavasitə tanış olur. Bəzən cəbhə bölgəsi deyiləndə valideyn narahat olur, amma orada yaradılmış yüksək məişət şəraiti ilə tanış olanda fikri tam dəyişir. Doğrudan da bu gün Azərbaycan Ordusunun elə bir hərbi bölməsi tapılmaz ki, orada əsgərlərin nümunəvi xidməti üçün əlverişli şərait yaradılmasın. Hazırda Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən əsgərlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına ciddi fikir verilir.



**(Ardı 2-ci səhifədə)**

**İtaliyalı jurnalist:**

## "Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisidir"

İtaliyanın "l'opinione" xəbər saytında daha öncə ermənipərəst "Qarabağ üçün İtaliya təşəbbüsü" tədqiqat qrupu tərəfindən hazırlanan və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı saxta faktların yer aldığı məqaləyə cavab olaraq həmin saytda italiyalı jurnalist Romulus Martelloninin "Dağlıq Qarabağ və həqiqi faktlar" sərlövhəli yazısı yerləşdirilib.

Jurnalist bildirir ki, onun əvvəllər də dərc edilən yazıları real faktlar və obyektiv məlumatlara əsaslanıb. "Mən daha əvvəllər də Dağlıq Qarabağ problemi ilə bağlı yazdığım bütün məqalələri Azərbaycan tərəfinin məlumatları əsasında deyil, beynəlxalq təşkilatların sənədləri, hamının bildiyi və qəbul etdiyi real faktlar əsasında hazırlamışam. Həmişə bu münaqişənin səbəblərini obyektiv araşdırmağa çalışmışam".

Erməni yönümlü tədqiqat qrupunun nümayəndələrinə cavab olaraq müəllif yazır: "Diqqətinizi mühüm beynəlxalq təşkilatların müvafiq məsələ ilə bağlı bəyan etdiyi həqiqətlərə yönəltmək istərdim. Bütün beynəlxalq sənədlərdə Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisi kimi göstərilir. Münaqişə nəticəsində bir milyon azərbaycanlı öz doğma yurdlarından didərgin düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Avropa Şurasının, Avropa Şurası Parlament Assambleyasının sənədlərini, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin birgə bəyanatlarını mən özüm əldə edərək reallığın şahidi olmuşam. Xocalı hadisələrinə gəldikdə isə bu barədə də Azərbaycan mənbələrindən istifadə etməyə ehtiyac yoxdur. Erməni qüvvələri tərəfindən Xocalı soyqırımı törədildikdən sonra "Human Rights Watch" təşkilatının hesabatında, "The Herald", "The New York Times" və digər məşhur qəzetlərdə bu faciə ilə bağlı ətraflı məlumatlar yer alıb. Nüfuzlu "Reuters" agentliyinin fotomüxbiri tərəfindən Xocalı soyqırımına dair çəkilən şəkillər, digər mətbu orqanların məqalələri və lentə alınan videolar, saysız-hesabsız məqalələr bu soyqırımı haqqında ətraflı məlumat almağa kifayət edir. Xocalı faciəsinin ABŞ-ın bir neçə ştatı, Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çex Respublikası və İordaniya parlamentləri tərəfindən artıq soyqırımı kimi tanınmasına dair sənədlər qəbul edilib".

R.Martelloni bildirir ki, Azərbaycan ilə bağlı tənqidi məqamlar səslənən zaman bu ölkədə müstəqil medianın fəaliyyət göstərdiyini, internetdən istifadənin tam azad olduğunu, KİV-lərin sayının getdikcə artdığını unutmaq lazım deyil. "Nə üçün 1999-cu ildə Ermənistan parlamentinin sessiyası zamanı bu ölkənin baş naziri və bir sıra siyasətçilərin öldürülməsi faktı qeyd edilmir?! 2008-ci ildə isə Ermənistanda parlament seçkilərinə etiraz olaraq nümayişə çıxan 10 nəfər öldürülüb. Bütün bu hadisələr məhz Ermənistanda baş verib, Azərbaycanda deyil", - deyə o vurğulayır.

Müəllif qeyd edir ki, ermənilər artıq öz müqəddəratını təyin edib və beynəlxalq birlik Azərbaycanın ərazi bütövlüyünü tanıyır: "Erməni xalqının öz müqəddəratını təyin etmək məsələsinə gəldikdə isə artıq 1991-ci ildə Ermənistan dövləti yaratmaqla siz öz müqəddəratınızı təyin etmisiniz. Beynəlxalq birlik Dağlıq Qarabağı və ətraf yeddi rayonu Azərbaycan ərazisi kimi tanıyır. Beynəlxalq hüququn bu prinsipinə hörmətlə yanaşmaq peşəkar jurnalist kimi mənim borcumdur".

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi Hərbi Akademiyanın məzunları ilə görüşüb

***İyulun 30-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Silahlı Qüvvələrin Hərbi Akademiyasının 2014-cü il məzunları ilə görüşüb.***

Baş Qərargah rəisi məzunlar qarşısında çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğını xüsusi qeyd edərək, Silahlı Qüvvələrdə aparılan islahatların mahiyyətini, ordu quruculuğunun inkişaf etdirilməsi sahəsində Müdafiə Nazirliyinin rəhbərliyi qarşısında qoyulan göstəriş və tapşırıqları bir daha şəxsi heyətin nəzərinə çatdırıb.

Zabitləri bu əlamətdar gün münasibətilə təbrik edən general-polkovnik N.Sadıkov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrlərini, tələblərini və tövsiyələrini şəxsi heyətə çatdıraraq, ordumuzun daha güclü, qüdrətli olması, düşmən üzərində qələbənin təmin edilməsi üçün əldə etdikləri biliklərinin təcrübədə tətbiq edilməsi məqsədilə xidmətlərində və gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Müdafiə naziri həlak olmuş və yaralanmış hərbi qulluqçuların mükafatlandırılması üçün göstəriş verib

**1 avqust 2014-cü il.**

İyulun 31-də saat 20.00 radələrində Ermənistan-Azərbaycan sərhədinin Qazax rayonu ərazisində düşmənlə döyüşdə Silahlı Qüvvələrimizin 1977-ci il təvəllüdlü, Qazax rayonundan hərbi xidmətə çağırılmış gizir Almazov İsə Ziyad oğlu düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

* * *

İşğalçı Ermənistan Respublikasının Silahlı Qüvvələri son günlər fəallaşaraq Ermənistan-Azərbaycan dövlət sərhəddinin və qoşunların təmas xəttinin müxtəlif istiqamətlərində atəşkəs rejimini planlı şəkildə pozaraq Silahlı Qüvvələrimizin mövqelərinə basqın etmişlər.

Ermənistan ordusunun kəşfiyyat-təxribat qrupları cəbhə xətti boyunca qoşunların təmas xəttini keçməyə cəhd göstəriblər.

Silahlı Qüvvələrimizin bölmələri düşmənin bütün həmlələrini dəf etmiş, şiddətli döyüşlər nəticəsində ermənilər xeyli itki verərək geri çəkilməyə məcbur edilmişlər.

Nəticədə 3 gün ərzində gedən döyüşlərdə Azərbaycan Silahlı Qüvvələrinin 8 nəfər hərbi qulluqçusu həlak olub.

Müdafiə Nazirliyi bildirir ki, cəbhə xətti Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altındadır və şəhid olmuş hərbi qulluqçularımızın qanı yerdə qalmayacaqdır.

* * *

Döyüş tapşırığını yerinə yetirərkən həlak olmuş və yaralanmış hərbi qulluqçuların mükafatlara təqdim olunmaları üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən müvafiq göstəriş verilib.

Müdafiə nazirinin tapşırığına əsasən yaralılara yüksək ixtisaslı tibbi yardım göstərilməsi üçün hərbi həkimlərdən ibarət mütəxəssis qrupu yaralıların müalicə olunduğu hərbi hospitala göndərilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov bir daha şəhid olmuş hərbi qulluqçuların ailələrinə, valideynlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılara şəfa diləyir!

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 1-də Xocavənd rayonu Kuropatkino kəndinin yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılıb.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və səhra köməkçisi Jiri Aberle keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov, Xristo Xristov və Piter Svedberq keçiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Silahlı Qüvvələrin Baş Qərargahı üçün inşa edilən yeni inzibati binanın təməlqoyma mərasimi keçirilib





***İyulun 26-da Müdafiə Nazirliyinin ərazisində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı üçün inşa edilən yeni və müasir tipli inzibati binanın təməlqoyma mərasimi keçirilib. Tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti iştirak edib.***

Müdafiə naziri təməlqoyma mərasimində çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq son vaxtlar ordunun maddi-texniki bazasının möhkəmləndirilməsini, hərbi qulluqçular üçün paytaxt Bakıda və ölkənin digər bölgələrində müasir xidməti mənzillərin, hərbi hissələrdə yeni əsgər kazarmalarının və digər məişət obyektlərinin tikilərək istifadəyə verilməsini xüsusi vurğulayıb.

General-polkovnik Zakir Həsənov Baş Qərargahın yeni inzibati binasının qısa bir vaxtda və keyfiyyətlə tikilməsi üçün şirkət rəhbərliyinə tövsiyələrini bildirib. Sonra metal giliz bünövrəyə buraxılıb və binanın özülünə beton qarışığı tökülüb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə Nazirliyinin ünvanına xeyli minnətdarlıq məktubları göndərilib

Xəbər verdiyimiz kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən hərbi vətənpərvərlik həftəsi çərçivəsində iyul ayının 4-də Göygöl rayonu ərazisində Murovdağ şəhidlərinin xatirəsinə abidə ucaldılmışdır.

Şəhid ailələri bu xeyirxah vətənpərvərlik təşəbbüsünə görə Müdafiə Nazirliyinin ünvanına xeyli minnətdarlıq məktubları göndərmişlər. Həmin məktublardan birini təqdim edirik:

***Azərbaycan Respublikasının Müdafiə naziri hörmətli general-polkovnik Zakir Həsənov!***

*Əvvəla salam-əleyküm. Sonra Sizi bu yeni Müdafiə naziri vəzifəsinə təyin olunmağınız münasibətilə təbrik edir, Sizə cansağlığı, uzun ömür və bu möhtəşəm işinizdə hər an nailiyyətlər və müvəffəqiyyətlər arzulayıram.*

*Mən, Azərbaycan Respublikasının şəhid zabiti leytenant Böyükzadə Elşən Böyük oğlunun atası, bildirmək istəyirəm ki, oğlum 1994-cü il fevral ayının 11-də Kəlbəcər rayonunun azad olunması uğurunda gedən döyüşlərdə Yanşuq kəndində düşmən gülləsinə tuş gələrək həlak olmuşdur və cəsədi bizə təhvil verilmədiyi üçün məzarı yoxdur.*

*20 ildən artıqdır ki, oğlum Elşənin yad edilməsi üçün hara gedək, bilmirdik. İndi Göygöl rayonunun Toğana yaşayış məntəqəsində Kəlbəcər şəhidlərinə qoyulan (04.07.2014-cü il) abidə artıq biz valideynlərin nigarançılığına son qoydu və biz lazım gəldikdə təsəlli tapmaq üçün abidəni ziyarət edə bilirik.*

*Odur ki, Ali Baş Komandan İlham Əliyevdən və Sizdən qəlbimin dərinliklərindən gələn səmimi və atəşin minnətdarlığımı qəbul etmənizi artıq dərəcədə xahiş edirəm.*

***Hörmətlə, B.İ.Böyükzadə,***
***şəhid leytenant***
***Böyükzadə Elşənin atası***

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**30 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 111 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Vazaşen, Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Məzəm, Qızılhacılı, Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam Koxanəbi kəndində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şuraabad, Baş Qərvənd, Şıxlar, Sarıcalı, Novruzlu, Qaraqaşlı, Cəvahirli, Şirvanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Qaraxanbəyli, Qorqan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Xocavənd rayonunun Kuropatkino, Goranboy rayonunun Tapqaraqoyunlu, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**31 iyul 2014-cü il.**

İyulun 31-də saat 17.00 radələrində erməni silahlı bölmələri atəşkəs rejimini növbəti dəfə pozaraq mövqelərimizi atəşə tutublar.

Döyüş mövqeyində təhlükəsizlik qaydalarının pozulması nəticəsində Silahlı Qüvvələrimizin 1992-ci il təvəllüdlü, Ağdam rayonundan hərbi xidmətə çağırılmış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Əhmədov Qaryağdı Eldar oğlu düşmən tərəfindən açılan snayper atəşindən həlak olub.

**31 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 96 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Əlibəyli kəndlərində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şuraabad, Baş Qərvənd, Şıxlar, Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Horadiz, Qorqan, Tərtər rayonunun Çiləbürt, Çaylı, Qızıl Oba, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**1 avqust 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 71 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Vozaşen, Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Qızılhacılı və Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçuayrım kəndlərində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şuraabad, Baş Qərvənd, Sarıcalı, Qaraqaşlı, Cəvahirli, Kəngərli, Tərtər rayonunun Çiləbürt, Göyarx, Qızıl Oba, Füzuli rayonunun Horadiz, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Goranboy rayonunun Gülüstan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, Xocavənd və Göygöl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Torpaqlarımızın işğaldan azad edilməsi hər birimizin amalı olmalıdır

**(Əvvəli 1-ci səhifədə)**

Yeri gəlmişkən, bir vacib məsələnin də üzərində dayanmaq istərdim. Ordunun təlim-tərbiyə işinə və psixoloji vəziyyətinə məsuliyyət daşıyan zabitin özü hərbi kollektivə xarici görünüşü, nizam-intizamı, davranışı, mədəniyyəti, peşəkarlığı ilə nümunə olmalıdır. Yəni, komandirin şəxsi heyətlə iş üzrə müavini həm mənəvi-əxlaqi keyfiyyətləri, həm də təşkilatçılığı və əsl hərbçiyə lazım olan xüsusiyyətləri baxımından müsbət mənada fərqlənməlidir. Şəxsi heyət qarşısında tərbiyədən, vətənpərvərlikdən, əxlaqi dəyərlərdən danışan zabit özü hər kəsə nümunə olmalı və şəxsi keyfiyyətləri ilə seçilməlidir.





Silahlı Qüvvələrin şəxsi heyəti ilə aparılan təlim-tərbiyə prosesində xalqımızın qəhrəmanlıq nümunələrinin təbliğinə geniş yer verilməlidir. Tarix boyu Vətənimizin müdafiəsi uğrunda qəhrəmanlığı ilə seçilmiş Azərbaycan övladlarının, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində rəşadət göstərmiş igidlərin örnək olan həyat və fəaliyyəti şəxsi heyətə təbliğ edilməlidir.

Həmçinin Azərbaycan əsgərinin yenilməzliyi, onun iradəsinin gücü və düşmənə sonsuz nifrəti konkret qəhrəmanlıq nümunələri ilə izah edilməlidir. Bu istiqamətdə Milli Qəhrəman Mübariz İbrahimovun göstərdiyi misilsiz hünər və şücaət əsgərlərin diqqətinə çatdırılmalıdır. Ordumuzda təqdirəlayiq bir ənənədir ki, bütün hərbi bölmələrdə Mübariz İbrahimovun xatirə guşələri yaradılıb. Xüsusən də ön xətdəki bölmələrdə şəxsi heyətin döyüş növbəsinə təlimatlandırılması bu guşənin qarşısında keçirilir. Doğrudan da, bu, çox əhəmiyyətlidir və ciddi bir sınağa - Vətənimizin qorunmasının etibar olunduğu döyüş növbəsinə yola düşən əsgərlər üçün xüsusi tərbiyəvi əhəmiyyətə malikdir.

Heç şübhəsiz, orduda tərbiyəvi xarakterli belə tədbirlərin keçirilməsinə, yeni üsulların işlənib hazırlanmasına ciddi ehtiyac vardır. Bütün bu proseslərdə əhəmiyyət verəcəyimiz əsas məqsəd şəxsi heyəti qələbə ruhunda tərbiyə etməkdir.

Bir vacib məqama toxunmaq istərdim. Böyük bir tarixi dövr ərzində Azərbaycanın ictimai-siyasi həyatında müstəsna yeri olan ulu öndərimiz Heydər Əliyevin siyasi irsi ölkəmizin bütün idarəetmə qurumlarında, təhsil sistemində təbliğ olunduğu kimi, ordu bölmələrində də bu siyasi kursun yetərli təbliğinə önəm verilir. Onun müdrik bir Ali Baş Komandan olaraq ölkəmizin ordu sisteminin yaranması və formalaşmasındakı misilsiz xidmətləri şəxsi heyətə layiqincə təbliğ olunur. Əlbəttə, böyük öndərimizin mənalı ömür yolu və siyasi fəaliyyəti hər bir əsgər və zabitimiz üçün ən layiqli örnək olmalıdır.

İnsanın özünə inamının güclü olması diqqət çəkən əsas məqamlardandır. Özünə güvənməyən, özünə etibarı olmayan şəxs heç zaman nəyəsə nail ola bilməz. Orduda da belədir, əsgər və zabitlərin, bütövlükdə şəxsi heyətin özünə və silahına inamı bütün hərbi nailiyyətlərimizin özəyində dayanır.

Əsgərlərdə inam hissinin formalaşması nəticə etibarilə hərbi əməliyyatın uğurla yekunlaşmasında az əhəmiyyət daşımır. İnam böyük qüvvədir. Orduda isə bu, daha geniş məna kəsb edir. Əgər əsgərin özünə inamı, yaxud komandirinə və döyüşçü yoldaşlarına etibarı olmasa, onda həmin əsgərdən nəsə gözləmək olmaz. Bəzən müharibədən bəhs edən filmlərdə şahidi olmuşuq ki, döyüşçünün özünə və komandirinə olan böyük inamı qələbənin qazanılmasında öz sözünü deyib. Bir məsələni unutmaq lazım deyil ki, inam əsgərin döyüş qabiliyyətini formalaşdırır. Əsgərlərdə bu vacib keyfiyyət əsasən təlim-məşq tapşırıqlarının yerinə yetirilməsində qarşıya çıxan çətinlikləri dəf etməklə tərbiyə olunur.

Təcrübə göstərir ki, vaxtaşırı keçirilən təlimlərdə ordu rəhbərliyinin iştirakı, şəxsən Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun əsgər və zabitlərlə ünsiyyət yaratması, dəyərli tövsiyələri şəxsi heyətin özünə inamında əsas təsirli vasitələrdəndir. Ümumiyyətlə, hər bir təlimə şəxsi heyəti ciddi hazırlaşdırmaq lazımdır. Məşhur rus sərkərdəsi Suvorov öz ordusu ilə keçilməz dağ aşırımlarında qələbə qazandıqdan sonra belə demişdi: "Təlimdə nə qədər tər axıtsan, döyüşdə az qan axıdarsan". Müdrik fikirdir, əlbəttə, təlimlərə ciddi hazırlaşmaq təkcə silah-sursatla düzgün rəftar qaydalarını əsgərə aşılamaqla bitmir, şəxsi heyəti mənəvi-psixoloji baxımdan da yüksək səviyyədə hazırlaşdırmaq vacib şərtdir. Təlim meydanında şərti düşmən hədəflərini məhv etməyi və müxtəlif mərhələlərdə döyüş vəzifələrini icra etməyi qarşısına məqsəd qoyan şəxsi heyət özünü əsl müharibədə olduğu kimi hiss etməli və hər addımda qələbə əldə etməyi düşünməlidir.

Şəxsi heyətdə qələbəyə inam hissi aşılamaq üçün öncə gənc əsgərlərlə fərdi söhbətləşmə düzgün qurulmalıdır. Bu söhbətləri təşkil edən zabit orduya yenicə qədəm qoyan gəncin fərdi təfəkkürünü və dünyagörüşünü tədqiq etməyə önəm verməlidir. Biz çalışmalıyıq ki, gənc əsgərlərdə dövlətimizə və xalqımıza inam, eləcə də vətənpərvərlik hissləri formalaşsın. Qoy əsgər dərindən hiss etsin ki, öz doğma Vətənini və dövlətçiliyini qorumaq onun qarşısına qoyulan müqəddəs vəzifədir və bu vəzifəni yerinə yetirməyə hazır olmaq üçün hər kəs hərbi xidmətin imkanlarından geniş istifadə etməlidir.

Hazırkı dövrdə həm dövlətimizin, həm də ordu rəhbərliyinin prioritet istiqamətlərindən biri hərbi qulluqçulara diqqət və qayğı məsələsidir. Bu məsələni möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hərbi hissələrdə keçirdiyi görüşlərdə də dəfələrlə vurğulayıb və qeyd edib ki, ən çətin və məsuliyyətli peşədə çalışan hərbi qulluqçular daim dövlətin yüksək qayğısı ilə əhatə olunmalıdır. Dövlətimiz hazırda bu sahədə ardıcıl siyasət yürüdür, hərbçilərin sosial rifahını yaxşılaşdırmaq üçün Bakıda və bölgələrdə yeni müasir hərbi şəhərciklər salınır. Zabit və gizirlərin ailələri rahat şəraitə malik olan evlərdə məskunlaşırlar. Əsgərlərin məişət şəraitini yaxşılaşdırmaq üçün hər cür şəraiti olan əsgər kazarmaları tikilərək onların istifadəsinə verilir.

Orduda şəxsi heyətin düzgün qidalanmasına və əşya-ərzaq təminatına bu gün böyük diqqət yetirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu yaxınlarda AzərTAc-a müsahibəsində qeyd etdiyi kimi, keyfiyyətsiz ərzaq məhsullarının əsgər masasının üzərinə düşməsinin qarşısının alınması məqsədilə ərzaqların müəssisələr tərəfindən birbaşa hərbi hissələrə verilməsi qadağan edilib. Hərbi hissələrdə şəxsi heyət üçün keyfiyyətli və dadlı yeməklərin hazırlanması məqsədilə peşəkar mülki aşpazların işə qəbul edilməsi həyata keçirilir. Həmçinin şəxsi heyətin qidalanmasının keyfiyyətini artırmaq üçün yeni səmərəli tədbirlər görülür. Bütün bu görülən işlər yalnız bir məqsədə - orduda şəxsi heyətə diqqət və qayğının gücləndirilməsinə yönəldilib.

Hərbi xidmətə çağırılan gənclərin sağlamlıq durumuna ciddi önəm verilir. Bu məqsədlə gənc əsgərlərin təkrarən tibbi müayinədən keçirilməsi təşkil olunur. Ölkəmiz müharibə şəraitində olduğu üçün hazırda hərbi hissələrimizin əksəriyyəti çətin iqlim şəraiti və mürəkkəb relyefi olan ərazilərdə yerləşir. Şübhəsiz, belə şəraitdə xidmət etmək üçün ordu sıralarına çağırılan gənclərin sağlam, mənəvi-psixoloji və fiziki cəhətdən möhkəm, dözümlü olmaları vacibdir. Bu məqsədlə bütün cəbhə bölgələrində müasir tipli səhra hospitalları yaradılıb ki, burada hərbi qulluqçulara istənilən səviyyədə tibbi xidmətin göstərilməsi mümükündür.

Göründüyü kimi, orduda yüksək səviyyədə hərbi xidməti həyata keçirmək üçün mümkün olan bütün şərait yaradılır. Əsas məqsəd isə gənclərimizi Vətənimizin etibarlı müdafiəçiləri və qarşıda duran mühüm döyüş vəzifəsini yerinə yetirməyə qadir olan hazırlıqlı döyüşçülər kimi yetişdirməkdir. Bir sözlə, bu gün ordumuzda xidmət edən hər kəsin əsas amalı qələbəmizi təmin etməyə hazır olmaqdır.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

*Redaksiyamızın qonağı*

# “Hər şey ordu üçün, hər şey qələbə üçün!”

## Müsahibimiz Qarabağ döyüşçüsü, Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyevdir

***Məhəmməd müəllimlə söhbətimizi oxucularımızın diqqətinə çatdırmazdan öncə qısaca olaraq keçmiş Sovet ordusunun lokal müharibələrdə iştirakı ilə bağlı məlumatları diqqətə çatdırmaq istərdim.***

*“Bu gün ordumuzun maddi-texniki təminatı, dünya standartlarına uyğun müasir silahlarla təchiz olunması və şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığı imkan verir ki, Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmri yerinə yetirilsin”.*

XX əsrdə bəşəriyyəti qorxu içində saxlayan, dünya tarixinə "Soyuq müharibə" adı ilə düşən müharibə və münaqişələr az olmayıb. Bu hərbi əməliyyatlarda keçmiş sovet ordusunun tərkibində azərbaycanlılar da iştirak etmişlər. Onlar öz müstəqilliyi uğrunda mübarizə aparan xalqlara və dövlətlərə hərbi yardımın göstərilməsi üçün Çin və Şimali Koreya, Hind-Çin yarımadası ölkələri, Vyetnam, Laos, Kamboca, Banqladeş, Kuba, Afrika ölkələri, Əlcəzair, Mozambik, Anqola, Efiopiya, Misir, Yəmən, Suriya, Livan kimi ölkələrdə mövcud müharibələrdə şücaət göstərmişlər. Belə müharibələrin içərisində daha çox itkilərlə yadda qalanı və hərb tariximizin səhifələrinə qanla yazılanı Əfqanıstan müharibəsidir. Sovet ordusunun Əfqanıstanda olduğu müddətdə keçmiş ittifaqın 620 min hərbi qulluqçusu 416 irimiqyaslı əməliyyatda iştirak edib. 547 min nəfər döyüş əməliyyatlarının birbaşa iştirakçısı olub. 21 min nəfər isə əmək fəaliyyətinə cəlb edilmişdi. Sovet ordusunun sıralarında 68 millətin nümayəndəsi Əfqanıstanda xidmət etmişdi. Onlardan 86 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, (25 nəfəri ölümündən sonra) 200 min nəfəri döyüş, 2500 nəfər isə digər müxtəlif əmək fəaliyyətinə görə orden və medallarla təltif olunmuşlar. Cenevrə razılaşmasına əsasən, Sovet İttifaqının 40-cı ordusunun Əfqanıstandan çıxarılmasına 15 may 1988-ci il tarixindən başlanılıb və bu proses 15 fevral 1989-cu ildə başa çatdırılıb.

35 il əvvəl sovet ordusunun Əfqanıstana daxil olmasına müxtəlif səbəblər gətirilirdi. Bu hərəkata beynəlmiləl borc, işğal, silahlı müdaxilə, humanitar yardım və s. kimi adlar verilirdi. Sovet ordusunun əsgərləri, yəni 20 yaşı tamam olmayan çağırışçılar onlara birbaşa aid olmayan, amma vətəndaşı olduqları ölkə üçün vacib olan münaqişəyə cəlb olunurdular. Əfqanıstan müharibəsi zamanı sovet ordusunun tərkibində 10 minə yaxın azərbaycanlı hərbi xidmət keçmişdi. 100 nəfərə yaxın işçi və qulluqçu isə əmək fəaliyyəti ilə məşğul olmuşdu. Bunlardan 208 nəfəri həlak olmuş, 5 nəfər isə itkin düşmüşdü.

1991-ci ildə ölkəmiz yenidən müstəqilliyini qazandıqdan sonra milli ordunun yaranmasında Əfqanıstan müharibəsi veteranlarının da böyük rolu oldu. Onlardan 7 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına, 37 nəfəri isə Azərbaycan Bayrağı ordeninə layiq görüldü. Bu gün də Azərbaycan Ordusunun sıralarında Əfqanıstan müharibəsi döyüşçüləri şərəflə xidmət edirlər.

***- "Tərəqqi" medalına, Xalqlar Dostluğu ordeninə layiq görülən sülhməramlı və beynəlmiləlçi döyüşçü Məhəmməd Vəliyev kimdir və onun keçdiyi döyüş yolu...***

- Yanvarın 3-ü 1961-ci ildə Bakı şəhərində, müəllim ailəsində anadan olmuşam. Atamı çox erkən itirmişəm. Əslimiz Naxçıvan MR-in Culfa şəhərindən olduğuna görə hər il yay tətilində doğma dədə-baba yurdumuza gedərdik. O illəri həmişə çox kövrək xatirələrlə düşünürəm. Orta məktəbi bitirdikdən sonra 1979-cu ildə hərbi xidmətə çağırıldım. Hərbi xidmətimi sovet ordusu tərkibində Əfqanıstanda keçmişəm. Topçu olmuşam. Mənim xidmətdə olduğum hərbi hissə məxfi idi. Siz o illəri əks etdirən fotolar istəyirsiniz, inanın ki, biz o zaman günlərlə açıq havaya çıxmırdıq. Qeyd edim ki, Əfqanıstana göndərilən ilk azərbaycanlılardan olmuşam. 1941-1945-ci illərin müharibə səhnələrini filmlərdə görən 20 yaşlı bir gənc üçün canlı müharibənin nə qədər çətin, ağır olduğunu siz düşünün...

Hərbi xidmətdən sonra 1981-ci ildə Azərbaycan Politexnik İnstitutuna (hazırda Azərbaycan Texniki Universiteti) daxil oldum, 1986-cı ildə mühəndis-mexanik ixtisası üzrə oranı bitirdim. Ali məktəbi qurtarandan sonra Keşlə Maşınqayırma zavodunda mühəndis-mexanik vəzifəsinə işə qəbul olundum. Artıq müstəqil əmək fəaliyyətim başlamışdı. Lakin 1988-ci ildə məlum Dağlıq Qarabağ hadisələri, ermənilərin torpaq iddiaları başlayanda həyatımızın sakit, dinc dövrü bitdi. Sovetlər İttifaqının dağılmasıyla imperiyanın süqutu getdikcə yaxınlaşırdı. Biz əfqan müharibəsi veteranları torpaqlarımıza göz dikən erməni daşnak tör-töküntülərinin, Moskva havadarlarının verdiyi "bəyanat"lara qarşı təşkil olunan nümayiş və mitinqlərdə fəal iştirak edirdik. Vətənimizin azadlığı, müstəqilliyi və torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə qalxan minlərlə insan axınının içərisində biz əfqan veteranları da var idik. 20 Yanvar faciəsi, "Xocalı" soyqırımı, xalqımızın başına gətirilən digər müsibətlər, bütün bunlar bizi daha da birləşdirirdi, düşmənlə mübarizəyə çağırırdı.

***- Məhəmməd müəllim, siz Azərbaycan milli ordusunun sıralarına könüllü daxil olan ilk zabitlərimizdənsiniz. Bilirik ki, milli ordu hissələri formalaşanda Əfqanıstan müharibəsi veteranları da könüllü səfərbər olunaraq torpaqlarımıza göz dikən ermənilərlə döyüşə atıldılar. O illərlə bağlı xatirələrinizi qəzetimizin oxucuları ilə bölüşərdiniz.***

- Mən zabit idim. Hələ hərbi xidmətdə olarkən müəyyən kurslara göndərilmişdim. O zaman reaktiv artilleriya ixtisası üzrə Azərbaycanda çox az sayda zabit var idi. İndiyədək jetonumun nömrəsi də yadımdadır. Biz müharibə görmüşdük. Artıq bizim təcrübəmizdən istifadə etmək zamanı idi. Xocalı faciəsindən sonra könüllü olaraq hərbi komissarlığa müraciət etdim. Bilirdim ki, ixtisasıma görə mənə ehtiyac var. 1992-ci ilin mart ayında Şuşa şəhərinə 2 aylıq ezam olundum. Orada 2 ədəd BM-21 tipli reaktiv qurğu quraşdırılmışdı. Onlardan biri nasaz vəziyyətdə olduğundan dərhal bərpa edərək işlək vəziyyətə gətirdim. Bu qurğuların idarə olunması üçün xüsusi xəritələr lazım idi. Ona görə də Azərbaycanda yerləşən 4-cü ordunun komandanlığı Əfqanıstan müharibəsi veteranı kimi mənə etibar edərək o xəritələri əldə etməyə kömək göstərdi. Həmin reaktiv artilleriya qurğusunun yaylım atəşi 6 hektar ərazini əhatə edirdi. Qurğunu idarə etmək üçün iki zabit lazım idi. Qısa müddət ərzində hər iki maşını idarə etməyi bacaran heyəti formalaşdıra bildim. Birinci məqsədim Xocalı aeroportunu vurmaq, dağıtmaq olmuşdu. Həmin vaxtlar Moskvanın "Vremya" ("Zaman") xəbərlər proqramında həyəcanla səslənirdi ki, ermənilərin mövqeləri BM-21 reaktiv artilleriya qurğularından intensiv atəşə tutulub. Mən sevinirdim ki, gündüz açdığım atəşin səsi axşam eşidilirdi.

Onu da deyim ki, Şuşada olanda mən təzyiq altında idim. Bir dəstə özünümüdafiə qüvvələri, bir dəstə dövlət tərəfindən təyin olunan qüvvələr. Yalnız onların göstərdiyi, müəyyən etdiyi əraziləri vura bilərdim. O zaman Şuşanın müdafiə olunmasında milis dəstələri xüsusi fəallıq göstərirdilər. Bunu mən mütləq deməliyəm.

1993-cü ilin noyabrında ulu öndər Heydər Əliyevin televizya və radio ilə xalqa müraciətindən sonra ilk olaraq biz Əfqanıstan veteranları səfərbər olunduq. Ulu öndər Şəhriyar adına klubda bizi qəbul etdi. Biz o görüşdən ruhlanaraq torpaqlarımızın azadlığı, Vətənimizin müstəqilliyi uğrunda mübarizəyə qalxdıq və dahi rəhbərimizin ətrafında sıx birləşdik. Əsasən əfqan döyüşçülərindən ibarət olan bir hərbi hissə yaradıldı. Mən də təcrübəli zabit kimi hərbi hissənin formalaşmasında iştirak etdim. Döyüş yolumuz Murovdan başlandı. Təəssüflər olsun ki, həmin hərbi hissə atəşkəsdən sonra dağıldı.



***- Müasir Azərbaycan Ordusunun inkişafı ilə ilk ordu quruculuğu arasında müqayisəni necə qiymətləndirirsiniz?***

- Fərq çox böyükdür. Çox söz deyə bilərəm. Hər şey göz önündədir. 1991-1992-ci illərdə ölkədə hərc-mərclik, özbaşınalıq hökm sürürdü. Ordudan xəbəri olmayan can atırdı ki, ancaq komandir olsun. Düzdür, sovet ordusundan gələn azərbaycanlı peşəkar zabitlər ordumuzun formalaşması üçün çox çalışırdılar. Orduda tabesizlik, vahid komandanlığın olmaması həm onları ruhdan salırdı, həm də Silahlı Qüvvələrimizin tez bir zamanda təşkil olunmasını ləngidirdi. Şükürlər olsun ki, bu gün ordumuzun, Silahlı Qüvvələrimizin kadr potensialı gücləndirilməkdədir. Xaricdə təhsil alan zabitlərimiz ölkəmizin ordu quruculuğuna böyük töhfə verirlər.



Bu gün ordumuzun maddi-texniki təminatı, dünya standartlarına uyğun müasir silahlarla təchiz olunması və şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığı imkan verir ki, Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmri yerinə yetirilsin.

***- Bildiyimizə görə, Əfqanıstan müharibəsi veteranları "Hər şey ordu üçün, hər şey qələbə üçün" devizi altında yürüş təşkil edəcək. Bu yürüşün təşkil olunması hansı zərurətdən irəli gəlir?***

- Uzun illər milli ordumuz üçün çalışan, həmişə özlərini ordunun yanında görən Əfqanıstan veteranları sanki yaddan çıxmışdı. Hörmətli Müdafiə naziri general-polkovnik Zakir Həsənov fəal veteranlarımızı bu il martın 18-də qəbul etdi. Və o görüşdə də Əfqanıstan veteranları ilə birgə həyata keçiriləcək vətənpərvərlik fəaliyyəti ilə əlaqədar işçi qrupunun yaradılması və tədbirlər planının tərtib edilməsi qərara alındı. Müdafiə nazirinin 2014-cü il aprelin 5-də "Azərbaycan Respublikası Silahlı Qüvvələri şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyi ilə əlaqələrin daha da genişləndirilməsi haqqında" əmri oldu. Bu əmrdən irəli gələn tədbirlər planı hazırlandı. "Hər şey ordu üçün, hər şey qələbə üçün" devizi altında yürüşün keçirilməsi də tədbirlər planına aiddir. Orduda şəxsi heyətin vətənpərvərlik tərbiyəsində Əfqanıstan veteranlarının gücündən istifadə etmək lazımdır. Bu deviz altında yürüşü təşkil etməkdə əsas məqsədimiz ordu ilə xalqın birliyini möhkəmlətmək, ordunun cəmiyyətdə nüfuzunu yüksəltməkdir. Bu gün ölkə rəhbərliyinin, Müdafiə nazirinin bütün diqqəti işğal altında olan torpaqlarımızın hər vasitə ilə azad olunmasına yönəlib. Üçrəngli bayrağımızın Qarabağda, Şuşada dalğalanacağı gün yaxınlaşmaqdadır, xalqımız buna çox inanır. Bu inamı bizdə dövlətimizin və ordumuzun rəhbərliyi yaradıb.

***- Əfqanıstan müharibəsi veteranları böyük qüvvədir. Əksəriyyətiniz iki müharibənin - həm Qarabağ, həm də Əfqanıstan müharibəsinin veteranlarısınız. Orduda şəxsi heyətlə görüşləriniz və hərbi vətənpərvərlik təbliğatında fəaliyyətiniz barədə nə deyə bilərsiniz?***

- Qeyd etdiyim kimi, Müdafiə nazirinin əmri ilə Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyi ilə birlikdə Silahlı Qüvvələrdə vətənpərvərlik tədbirlərini keçirmək üçün təşkilat komitəsi yaradılıb və tədbirlər planı təsdiq edilib. Bu günlərdə cəbhə bölgəsindəki hərbi hissələrdə döyüşçülərlə görüşlər təşkil etdik. Goranboy, Ağdam, Qazax, Tərtər, Beyləqan, Murov, Daşkəsən bölgələrində Vətən torpaqlarının keşiyini çəkən əsgərlərlə görüşdük. Onlara xatirə hədiyyələri təqdim etdik. Orada Əfqanıstan və Qarabağ müharibəsi iştirakçılarından, Binəqədi və Ağdam rayon Əfqanıstan müharibəsi veteranları təşkilatlarının sədrləri Məhəddin Rüstəmov, Rəfael Zeynalov, Ayxan Məmmədov, ehtiyatda olan polkovnik-leytenant Mirşamil Hadıyev çıxış etdilər. Biz şəxsi heyət qarşısında Azərbaycan Ordusunun bugünkü qüdrətindən, gücündən qürur duyduğumuzu bildirdik. Xidmətdə fərqlənən bir qrup zabitə xatirə medalları təqdim etdik. Yadda qalan tədbirlərimizdən biri də 1992-ci ildə Ağdərə və Tərtərin müdafiəsi uğrunda şəhid olan Milli Qəhrəman Şikar Şikarovun vaxtilə xidmət etdiyi "N" hərbi hissəsində 60 illik yubileyinin qeyd olunması idi.

***- Bəs təşkilatın beynəlxalq əlaqələri necə qurulur?***

- Bizim təşkilat yarandığı gündən MDB və dünya veteran təşkilatları ilə sıx əlaqədədir. Təşkilatımız Sovet İttifaqı Qəhrəmanı, general Ruslan Auşevin rəhbərlik etdiyi BMT-nin Sosial-İqtisadi komissiyasında xüsusi məsləhətçi statusuna malik "Müharibə Veteranları İctimai Komitəsi"nin, Müstəqil Dövlətlər Birliyi Hökümət Başçıları yanında "Müharibə Veteranları İctimai Komitəsi"nin və Boris Qromovun rəhbərlik edtiyi "Boyevoye Bratstvo" Beynəlxalq veteran təşkilatlarının üzvüdür. Birliyimizin 3 nümayəndəsi Boris Qromovun rəhbərlik etdiyi "Döyüş Qardaşlığı" Beynəlxalq veteran təşkilatının Ali Şurasında təmsil olunur. MDB ölkələrinin bütün veteran təşkilatları ilə əlaqələrimiz var və beynəlxalq tədbirlərdə iştirak edirik.

***- Məhəmməd müəllim, ordunun cəmiyyətlə əlaqəsinin qurulmasında mətbuatın rolu böyükdür. Ordu - media əlaqələrinə necə baxırsınız? Sizcə ordumuzun inkişafı yetərincə təbliğ olunurmu?***

- Düşünürəm ki, mətbuatda və telekanallarda ordunun, Silahlı Qüvvələrin hərbi qüdrətini təbliğ edən proqramlar çox olmalıdır. Vətənin, xalqın müdafiəsində dayanan zabitin, əsgərin xidməti çox işıqlanmalıdır. Bütün kanallarda hər gün ordumuzu təbliğ edən verilişlər hazırlanmalıdır. Hələ müharibə bitməyib, 20 faiz torpaqlarımız işğal altındadır. Belə bir vəziyyətdə ordu ilə xalqın birliyinin möhkəmlənməsi, vətənpərvərliyin təbliğ olunması daha önəmlidir. Ordunun nüfuzuna xələl gətirən yazılar, məlumatlar yolverilməzdir.

***- Bu gün müstəqil Azərbaycanın Cənubi Qafqazda lider orduya malik olması, ordumuzun artan gücü, qüdrəti yəqin ki, əfqan döyüşçülərini ruhlandırmaya bilməz...***

- Hələ Dağlıq Qarabağ hadisələri başlayanda biz Əfqanıstan veteranları torpaqlarımıza göz dikən ermənilərə qarşı döyüşməyə hazır idik. Çünki biz müharibəni, odu-alovu görüb gəlmişdik. Bu gün də aradan çox illər keçməsinə baxmayaraq həmin ruhda, həmin əzmdəyik. Müharibə o zaman bitəcək ki, torpaqlarımız düşməndən geri alınacaq. Son illər respublikamızın müdafiə potensialının artırılması, keçirilən hərbi təlimlər düşmənə sarsıdıcı zərbə vurur. Artıq erməni rəsmiləri yaxşı anlayır ki, Azərbaycanın hərbi gücü qarşısında tab gətirə bilməyəcəklər.

**- Maraqlı söhbətə görə çox sağ olun.**

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### BMT-nin hesablamalarına əsasən, Ukrayna 325 hərbçisini itirib



Ukrayna Milli Təhlükəsizlik Şurasının sözçüsü Andriy Lısenko deyib ki, Rusiyameylli separatçılarla aprelin 15-dən başlayan döyüşlərdə 1200-dən çox hərbçi yaralanıb. Üsyançılar və mülki sakinlər arasında da yüzlərlə adamın öldüyü bildirilir. BMT-nin hesablamalarına əsasən, Ukraynanın şərqində 230 mindən çox adam öz ev-eşiyini tərk edib. Onların 100 mininin Ukraynanın başqa regionlarına, digərlərinin Rusiyaya getdikləri bildirilir.

### Ukraynada azərbaycanlı mer öldürülüb



Ukraynada Poltava vilayətinin Kremençuk şəhərinin meri Oleq Babayev güllələnib. ANS PRESS-in "Kommersant"a istinadla verdiyi məlumata görə, o, yaşadığı evin həyətində 3 güllə ilə öldürülüb. "Batkivşina" partiyasından keçmiş deputat olan O.Babayevin 49 yaşı olub. O.Babayevin atası əslən Gəncə şəhərindən olub. O cüdo üzrə idman ustası idi. APA-nın UNİAN agentliyinə istinadən verdiyi xəbərə görə, O.Babayevin vida mərasimində 50 minə yaxın adam iştirak edib. Oleq Babayevin tabutu üzərinə Ali Rada, Nazirlər Kabineti, Ukrayna Futbol Federasiyası, Kiyev Meriyası və həmçinin yüzlərlə təşkilatlar tərəfindən əklil qoyulub.

### Qəzza zolağında ölən fələstinlilərin sayı 1600-ə çatıb



APA-nın France-Presse agentliyinə istinadən verdiyi xəbərə görə, İsrail bombardmanları nəticəsində Xan Yunis şəhərində İslam universiteti yaxınlığında bir ailənin 4 üzvü həlak olub, 20 nəfər yaralanıb. BMT-nin Baş katibi Pan Gi Mun münaqişə tərəflərini hərbi əməliyyatları dərhal dayandırmağa çağırıb. Pan Gi Mun Qəzza zolağında fəlakətli humanitar vəziyyətin yarandığını vurğulayıb. İyulun 8-dən, İsrailin Qəzza zolağında hərbi əməliyyatı başlayandan bəri 1600-dan artıq fələstinli və 43 İsrail vətəndaşı həlak olub.

### Azərbaycan Rusiya ilə təlim keçirib



Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsi əməkdaşları rusiyalı həmkarları ilə birgə təlimlərdə iştirak ediblər. Azərbaycanın dəniz sərhədçiləri ilk dəfə olaraq, Dövlət Sərhəd Xidmətinin və Rusiya Federasiyası Federal Təhlükəsizlik Sərhəd Xidmətinin 2014-2015-ci illərdə birgə tədbirlər planına əsasən Rusiya ərazisində birgə təlimlər keçiriblər. Dağıstanın cənub hissəsində 3 gün davam edən təlimlərin əsas mövzusu Xəzər dənizində bioloji resursların qorunması, beynəlxalq terrorizmə, qeyri-leqal miqrasiya və qaçaqmalçılığa qarşı mübarizə olub. Təlimlərdə Azərbaycan tərəfdən 1 sərhədçi gözətçi gəmisi, 2 sürətli kater, Rusiya tərəfdən isə 3 gəmi və bir irisürətli kater iştirak edib.

### Rusiyada Ramazan bayramı izdihamlı mərasimlərlə qeyd olunub



Rusiyanın böyük şəhərlərində Ramazan bayramı kütləvi şəkildə qeyd olunub. AzərTAc Rusiyanın kütləvi informasiya agentliklərinə istinadla xəbər verir ki, RF-nin Adıgey, Tatarıstan, Başqırdıstan, Dağıstan, Çeçenistan, İnquşetiya və əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən digər subyektlərində izdihamlı bayram mərasimləri keçirilib. Moskvada on minlərlə insanın iştirak etdiyi bayram mərasiminin təhlükəsizliyini 4 min polis işçisi və 500 drujinaçı qoruyub.

### İranda Xəzər donanması üçün ən böyük hərbi gəminin sınaqlarına başlanılıb



İran Xəzər donanması üçün nəzərdə tutulan ən böyük hərbi gəminin sınaqlarına başlayıb. APA-nın verdiyi məlumata görə, gəmi sınaqların keçirilməsi üçün Bəndər-Ənzəli limanından dənizə çıxıb. Ənzəlidəki "Shahid Tamjidi Marine Industries" (STMI) gəmiqayırma zavodunda inşa olunmuş, İran HDQ təsnifatında destoyer kimi yer alan gəminin inşasına 2007-ci ildə start verilib və ötən ilin mart ayında suya endirilib. "Moudge" proqramı çərçivəsində inşa olunmuş "Jamaran" adlı ilk freqat 2010-cu ildə İran Hərbi Dəniz Qüvvələrinin Fars körfəzindəki donanmasının tərkibinə daxil edilib. Freqatın uzunluğu 100 metr, sürəti 30 dəniz mili, çəkisi 1300 tondan çoxdur. İran Hərbi Dəniz Qüvvələrinin komandanı, kontr-admiral Həbibullah Səyyari bildirib ki, İran Xəzər dənizindəki mövcudluğunu yaxın illərdə daha da gücləndirməyi planlaşdırır. Yeni gəmi dəniz şəraitində kəşfiyyat və döyüş apara bilən pilotsuz uçuş aparatları və uzaq mənzilli raketlərlə təchiz edilib.

### Baş nazir müavininin həyat yoldaşını girov götürüblər



Nigeriyada fəaliyyət göstərən "Bako Haram"terror qrupu iyulun 27-də Nigeriya ilə sərhəddə yerləşən Kamerunun Kolofot şəhərinə hücum edərək dörd hərbçini və on iki mülki vətəndaşı qətlə yetirib, onlarla insanı isə girov götürüb.

Yerli rəsmilər girov götürülənlər arasında Kamerunun Baş nazirinin müavininin həyat yoldaşının da olduğunu bəyan ediblər. Afrika qitəsinin dörd ölkəsi-Nigeriya, Niger, Çad və Kamerun regionu daim təhdid edən "Bako Haram" terrorçularına qarşı birgə mübarizə aparmaq barədə iyulun 23-də əldə etdikləri ümumi razılığa cavab olaraq baş nazirin müavininin həyat yoldaşının girov götürüldüyü bildirilib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Qabaqcıl təcrübə

# Orduda tərbiyə işinin vacib amili

## "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda müsabiqə keçirilir





***Şəxsi heyətin ictimai-siyasi hazırlığı orduda döyüş hazırlığının və hərbi tərbiyə işinin vacib tərkib hissəsidir. Ordunun döyüş qabiliyyətinin möhkəmləndirilməsində və hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsində bu dərslərin önəmi böyükdür.***



Bu gün bütün qoşun növlərinə məxsus hərbi hissələrdə və hərbi təhsil müəssisələrində hərbi vətənpərvərlik tərbiyəsinin səmərəliliyini artırmaq, neqativ halların qarşısını almaq, hərbi intizamı möhkəmləndirmək qarşıda duran başlıca vəzifədir. Bu keyfiyyətlərin aşılanmasında ictimai-siyasi hazırlıq dərsləri mühüm rol oynayır. Bu məqsədilə Müdafiə nazirinin müvafiq əmrinə uyğun olaraq hazırda Silahlı Qüvvələrimizdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda müsabiqə keçirilir.

Məlum olduğu kimi, Silahlı Qüvvələrdə ictimai-siyasi hazırlıq dərsləri il ərzində zabit, gizir, əsgər və çavuş heyətləri ilə aparılır. Məqsəd hərbi qulluqçularda Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanına sədaqət, Vətənə və xalqa məhəbbət aşılamaq, hərbi hissələrdə və hərbi təhsil ocaqlarında nizam-intizamın və qayda-qanunun bərqərar olmasına, hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə nail olmaqdır. Hərbi Anda və nizamnamələrə sadiq olmaq, komandirlərin bu istiqamətdə əmr və tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirmək hər bir hərbi qulluqçunun birbaşa vəzifəsidir.

İctimai-siyasi hazırlıq dərslərində şəxsi heyətə dövlətimizin tarixi, vətənpərvərlik hissləri təbliğ olunur.



Təbii ki, məşğələlərin səmərəliliyi ilk növbədə qrup rəhbərlərinin hazırlıq səviyyəsindən, onların hərbi pedaqogikanı bilməsindən, ictimai-siyasi və hərbi proseslərdən baş çıxarmasından, mövzunu şəxsi heyətə öyrədə bilmək bacarığından çox asılıdır. Əslində müsabiqənin keçirilməsində məqsəd həm də qrup rəhbərlərinin pedaqoji ustalıqlarını artırmaq, onların öz vəzifə borcuna tələbkarlığını gücləndirməkdir .

Artıq bir çox hərbi hissələrimizdə müsabiqədə iştirak edən ictimai-siyasi hazırlıq qruplarına baxış keçirilib. Belə qruplardan bir neçəsinin iştirakı ilə keçirilən məşğələlərdə iştirak etdik. Hər şeydən öncə hərbi hissələrimizdə bu tədbirə böyük əhəmiyyət verildiyini hiss etdik.

Qrup rəhbərləri məşğələnin əvvəlində şəxsi heyətə ölkədə və dünyada baş vermiş aktual siyasi hadisələrin mahiyyətini çatdırırdılar. Sonra mövzu üzrə suallar izah edilir və əsgərlərin mövzunu necə mənimsədikləri aydınlaşdırılırdı. Məşğələnin sonunda isə döyüşçülərin biliyi qiymətləndirilirdi.

Qrup rəhbərləri dərsin keçirilməsi üçün lazımi əyani vəsaitlərdən, müasir informasiya və kommunikasiya texnologiyasından yararlanmağa çalışırdılar.

Silahlı Qüvvələrimizdə keçirilən "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda müsabiqəyə avqustun 10-da yekun vurulacaq və fərqlənənlər mükafatlandırılacaqlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## Azərbaycan güləşçilərinin "Qızıl Qran-pri" turnirində zəfəri



Bakıda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə "Qızıl Qran-pri" beynəlxalq turniri başa çatıb. AzərTAc xəbər verir ki, turnirdə 35 ölkədən 400-ə yaxın pəhləvan mübarizə aparıb. Sərbəst güləşçilərimiz 3 qızıl, 3 gümüş və 7 bürünc medalla yarış gününü başa vurub. Qızıl medalları yığmamıza Hacı Əliyev (61 kq), Cəbrayıl Həsənov (74 kq) və Xetaq Qazyumov (97 kq) qazandırıblar. Qadın güləşçilərimiz ikinci yarış günündə 2 qızıl medal qazanıb. Mariya Stadnik (48 kq) və Yuliya Ratkeviç (60 kq) bütün rəqiblərindən üstün olaraq fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Yunan-Roma güləşçilərimiz isə 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanmışlar. Onlardan Taleh Məmmədov (59 kq), Həsən Əliyev (66 kq), Rafiq Hüseynov (75 kq), Elvin Mürsəliyev (80 kq) qızıl medala sahib çıxıblar.

## Çempionlar Liqasında "Qarabağ"ın tarixi zəfəri



"Qarabağ" Çempionlar Liqasında yeni uğura imza atıb. Azərbaycan çempionu bu yarışın III təsnifat mərhələsində qələbə qazanan ilk klubumuz kimi tarixə düşüb. Görüşün 2-ci dəqiqəsində "Qarabağ" futbolçusu Danilo Diaz hesabı açıb. Matçın 77-ci dəqiqəsində Avstriya klubunun futbolçusu Conatan Soriano hesabı bərabərləşdirib. Görüşün 86-cı dəqiqəsində isə Reynaldo "Qarabağ"ı hesabda önə çıxarıb. Ağdam təmsilçisi rəqibini 2:1 hesabı ilə məğlub edib. "Qarabağ" həm də Çempionlar Liqasında ardıcıl 3 qələbə qazanan ilk Azərbaycan komandası oldu. Avstriyalılardan əvvəl Malta "Vallletta"sını iki dəfə udan (1:0, 4:0) ağdamlılar təmsilçilərimizdən heç birinin bacarmadığı uğura imza atıb.

## "Neftçi" "Çixura" ilə bərabərə qaldı



Avropa Liqasında III təsnifat mərhələsinin ilk oyunlarına start verilib. Turnirdə yeganə təmsilçimiz "Neftçi" öz meydanında Gürcüstanın "Çixura" klubu ilə qarşılaşıb.

Avroliqanın II təsnifat mərhələsində Türkiyənin "Bursaspor" klubunu penaltilərlə (4:1) üstələyən "Çixura"nın "Neftçi"yə necə müqavimət göstərəcəyi maraqla gözlənilirdi. Lakin bu görüşdə qapılara qol vurulmayıb - 0:0.

Qeyd edək ki, bu komandalar arasında cavab oyunu avqustun 7-də, Gürcüstanda keçiriləcək.

## İki boksçumuz medalı özünə təmin etdi



İtaliyanın Assisi şəhərində keçirilən yeniyetmə və gənc qızlar arasında boks üzrə Avropa birinciliyinə yekun vurulub. Trend Azərbaycan Boks Federasiyasına istinadən məlumat verir ki, milli komandamızın iki üzvü - Məryəm Cəbrayılova və Alina Hacıyeva (81 kq) yarımfinala vəsiqə qazanaraq, bürünc medalı özlərinə təmin ediblər.

## Velosiped idmanının kriterium yarışı üzrə Azərbaycan birinciliyi başa çatıb



Veloparkda velosiped idmanının kriterium ötüşməsi üzrə Azərbaycan birinciliyi keçirilib. U-15 və U-17 kateqoriyası üzrə təşkil olunan yarışda Azərbaycan Velosiped İdmanı Federasiyasının nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin 50-yə yaxın idmançısı iştirak edib. AzərTAc bildirir ki, 15 yaşadək idmançılar arasında qalib adını Ravil Xıdırov qazanıb. Onun komanda yoldaşı Xankişi İsgəndərov ikinci yeri tutub. İlk üçlüyü isə Maqsud Həsənov tamamlayıb.

Turnirdə 17 yaşadək idmançılardan Maksim Naperstkov, Nicat Oruczadə və Mikayıl Səfərli ilk üçlükdə qərarlaşıblar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Xarici hərbi xronika

## Silahlanmaya döyüş robotları qəbul ediləcək

"Döyüş texniki robotları" laboratoriyasının işçi qrupunun rəhbəri Oleq Maryanovun verdiyi məlumata görə, Rusiyanın Silahlı Qüvvələrinə döyüş robotlarının kütləvi şəkildə verilməsi 2018-ci ildən sonra həyata keçiriləcək. O bildirib ki, yaxın gələcəkdə RF SQ-i tankəleyhinə "Kornet" raket kompleksi ilə təchiz olunmuş "Tiqr" zirehli avtomobili texniki robotlarla təmin olunacaq. Robotların yerləşdirilməsində əsas məqsəd hərbi əməliyyatların gedişi zamanı hərbi qulluqçuların sağlamlığı və həyatı üçün təhlükənin minimal həddə çatdırılmasıdır.

## Pentaqon F-35 qırıcılarının uçuşuna icazə verib

ABŞ Müdafiə Nazirliyi 2014-cü ilin iyun ayında uçuşu dayandırılmış F-35 qırıcılarının yenidən uçuşuna icazə verib. Hazırda hərbçilər qırıcıların texniki vəziyyətini yoxlayırlar. Xatırladaq ki, F-35 qırıcılarının uçuşuna qadağa bu il iyunun 23-də qoyulmuşdu. Buna səbəb Floridada yerləşən Eqlin aviabazasında uçuş zamanı mühərrikin yanması olub. Hələlik isə qırıcının güc qurğusunda heç bir nöqsan aşkar edilməyib.

## Hollandiya ordusu Boxer zirehli transportyorlarını alıb

Bu yaxınlarda Oyrşotedə yerləşən Holland ordusunun motopiyada briqadasının tibb bölüyü ilk üç Boxer zirehli transportyorları bazası əsasında hazırlanmış zirehli tibb maşınlarını əldə edib.

Niderlandlılar ARTEC-200 şirkətinə 200 ədəd Boxer maşınlarının alınması üçün sifariş verib. Ən son məlumatlara görə, hollandlılara 52 ədəd zirehli tibb, 60 ədəd komanda-qərargah, 53 ədəd mühəndis, 27 ədəd zirehli yük transportyorları, 8 ədəd təlim maşınları verilməlidir. Artıq 8 ədəd təlim maşını 2013-cü ildə Holland ordusuna təqdim edilib. Maşınların qalan hissəsinin ordunun tərkibinə verilməsi 2015-ci ildən başlayaraq 2017-ci ilə qədər davam etdiriləcək.

## Qətər ABŞ-dan silah və hərbi texnika alıb

Qətərin Müdafiə Nazirliyi ABŞ-dan 11 milyard dollar həcmində silah və hərbi texnika alıb. Razılaşmada raket ələkeçiriciləri ilə birlikdə 10 Patrio zenit-raket kompleks batareyasının, 14 AH-64E hücum vertolyotunun və 500 tankəleyhinə "Javelin" raketinin verilməsi nəzərdə tutulub. Razılaşma 2014-cü ilin iyulun 14-də Vaşinqtonda əldə edilib.

Reutersin verdiyi məlumata görə, imzalanmış razılaşma Amerikanın hərbi ixracında ən iri saziş idi. Sazişin hansı müddətə bağlandığı hələ məlum deyil. Qətərin Müdafiə Nazirliyi nə qədər döyüş təyyarələrinin alınmasını hələ dəqiqləşdirməyib. Perspektivdə isə raketəleyhinə THAAD raketəleyhinə kompleksinin də alınması planlaşdırılıb.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

Fiziki hazırlıq

# Peşəkarlıq yüksək olanda...

***Hərbi hissə və birləşmələrə ezamiyyətə gedəndə əsgərlərin fiziki hazırlıq məşğələsindən yazmağı həmişə diqqətdə saxlayıram. Bu mövzuda ara-sıra material hazırlayıb hərbçilərin uğurlarını qələmə alıram. Qoy xalqımız Vətənə xidmət edən oğulların hazırlığından, bacarığından, hərbi tapşırıqları cəld və çevik yerinə yetirdiklərindən xəbər tutsun. Əmin olsun ki, yurdumuzu erməni qəsbkarlarından qoruyan hərbçilərin hazırlığı yüksək səviyyədədir. Onlar döyüş tapşırığı verilən anda düşmən üzərinə atılmağa hazırdırlar. Təbiidir ki, döyüş hazırlığı, peşəkarlıq yüksək olanda qələbə də asanlıqla qazanılır.***



Bəzən yazılar çətin yazılır. Qələmə alacağın mövzu ətrafında çox fikirləşib götür-qoy etməli olursan. Bəzənsə mövzu özü sənin əlindən tutub ardınca çəkib aparır. Hərbi mövzudan, əsgər həyatından, təlim-məşqlərdən yazanda həmişə belə olur. Yazının sükanı arxasına oturan kimi sürət öz-özünə artır, hamar bir yolla baş alıb gedirsən.

Mən bu sətirləri qələmə aldıqca gördüklərim bir anlıq gözlərim önündə canlanırdı. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit Mənsur İbadovla taborun yerləşdiyi əraziyə daxil olarkən yaxınlıqda fiziki hazırlıq məşğələsi keçən şəxsi heyət diqqətimizi cəlb etdi. Vaxt itirmədən onlara yaxınlaşdıq.

Məşğələnin gərgin anları idi. Əsgərlər əlbəyaxa döyüş idmanında güclərini nümayiş etdirirdilər. Budur, əsgərlərdən biri qarşısındakı rəqibə hücum edərək onu tərksilah etməyə çalışır. Amma bacarmır, çünki qarşısındakı əsgərin ondan güclü və bacarıqlı olduğu hiss olunur. Ona görə də məğlubiyyəti ilə barışmaqdan başqa yolu qalmır. Amma ruhdan düşmür, qələbə qazanmaq əzmini itirmir. Yenə də mübarizəyə atılır, başqa fənd işlədərək rəqibinə güc gəlir. Qələbə sevinci yaşayır, gözləri gülür, ürəyi açılır…

Mübarizə meydanı boş qalmır. Əsgərlər növbə ilə irəli çıxırlar. Müxtəlif fəndlər işlədərək bir-birilərinə qalib gəlməyə, daha hazırlıqlı, daha üstün olduqlarını göstərməyə çalışırlar.

- Əsgərin fərdi hazırlığı başlıca şərtdir, - deyə leytenant Xalid Abışov bizimlə söhbətə başladı - Əgər belə olarsa, təbiidir ki, o fiziki hazırlıq məşğələsində yaxşı nəticə göstərər, uğur qazanar. Ona görə də əsgərlərin fərdi fiziki hazırlığına diqqət ayırırıq. Şəxsi heyətin idmana marağı təqdirəlayiqdir. Onlar ordu sıralarına çağırılanadək idmanın müxtəlif növləri ilə məşğul olublar. Bəziləri isə bir çox beynəlxalq səviyyəli yarışların iştirakçısı olublar. Təbiidir ki, belə bacarıqlı əsgərlər fiziki hazırlıq məşğələsinə həvəslə qatılaraq tapşırıqları və normativləri tələb olunan səviyyədə, heç bir səhvə yol vermədən yerinə yetirirlər. Fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsidir. Buna görə də çalışırıq ki, əsgərlərimizin fiziki hazırlığı yüksək səviyyədə olsun. Çünki hazırlıqlı əsgər sabahkı döyüşlərdə düşməni məğlub edərək uğur qazanacaq. Buna görə də fiziki hazırlıq məşğələlərinin səmərəli keçirilməsini təmin etmək üçün bütün imkan və vasitələrdən lazımınca bəhrələnməyə çalışırıq.

Əlbəyaxa döyüş növlərinin nümayiş etdirilməsində fərqlənən əsgərlərdən Elvin Tunbayev və Xəyyam Hüseynovla görüşüb söhbət etdim. Uğur qazandıqlarına görə onların üzü gülürdü.

- Hələ kiçik yaşlarımdan idmana marağım var idi, - deyə əsgər Elvin Tunbayev bildirdi. - Daim öz üzərimdə çalışır, məşq edirdim. Gündən-günə təcrübəm artırdı. İdmançılardan bəhs edən filmlərə tamaşa edir, fərdi qaydada hazırlığımı artırırdım. Ordu sıralarına gəldikdən sonra məşqlərimi daha da inamla davam etdirirəm. Gərgin təlim-məşqlər öz bəhrəsini verir. İndi qarşılaşdığım rəqibləri üstələyirəm. Silahlardan da hədəfə dəqiq atəş açıram. Döyüş meydanında düşməni asanlıqla məhv edib qalib gələcəyəm. Evimizə, doğmalarımın yanına qələbə sorağı ilə qayıdacağam.

Budur, şəxsi heyətin məşğələləri davam edir. Əsgərlər müxtəlif fəndlər işlədərək qalib gəlməyə can atırlar. Mübarizə, yarış səngimək bilmir. İnanıram ki, lap tezliklə Azərbaycan əsgərinin şanlı qələbəsindən xəbər tutacağıq.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 255
Nüsxə 4570